# 2013-cü ilin birinci yarısı– uğurlar, perspektivlər

## Milli Məclisin üzvü Fəttah Heydərovun çıxışı

**Hörmətli dostlar!**
**Əziz qəbələlilər!**

İcazə verin sizi ürəkdən salamlayım, sizin hər birinizə xoş günlər arzulayım. Çox fərəh hissi keçirirəm ki, mən yenə də sizinləyəm. Ən çətin, ən xoş və əlamətdar günlərdə çalışmışam ki, həmişə sizinlə bir yerdə olam.

Bu gün çox vacib və aktual bir məsələnin müzakirəsinə toplaşmışıq. Müşavirədə məlumat verildiyi kimi iyul ayının 18-də ümummilli liderimiz Heydər Əliyev siyasətinin uğurlu davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin birinci yarısında respublikamızda görülən işlərin yekunlarına və qarşıda duran vəzifələrə aid iclası keçirilmişdir. İclasda cənab Prezident geniş nitq söyləmişdir, müzakirə olunan məsələ ilə əlaqədar çıxışlar olmuş, sonda yenə də qarşıda duran vəzifələr və həlli vacib məsələlərlə bağlı yekun nitqi söyləmişdir. İlham Əliyevin qeyd etdiyi və bizim hamımızın bildiyi kimi 2013-cü ilin birinci yarısı respublikamız üçün çox uğurlu olmuşdur. İlin ikinci yarısı üçün də belə uğurların davam etməsi gözlənilir.

Azərbaycan həqiqətən özünəməxsus inkişaf yolu ilə irəliləyir. Ölkənin inkişaf modeli artıq dünyanın bir sıra ölkələrinə nümunədir. Cənab Prezident bu il böyük bir yaşayış binasının tikilib mətbuat işçilərinin ixtiyarına verilməsini təmin etdi. Dünyanın heç bir ölkəsində dövlət mənzilə ehtiyacı olanlara ev tikib vermir. Bu, dünyada orijinal hadisədir ki, cənab Prezident 136 jurnalist ailəsini dövlət hesabına mənzillə təmin etdi. Azərbaycanda müstəqillik əldə edilən illərdə, torpaq islahatları zamanında Heydər Əliyev torpaqları pulsuz olaraq birdəfəlik kəndlilərin istifadəsinə vermişdir. Belə bir hadisə də heç bir dövlətdə olmamışdır.

Hazırda Heydər Əliyev siyasətini cənab Prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycan gündəngünə inkişafdadır. Bu inkişaf xalqın rifahını, güzaranını gündən-günə yaxşılaşdırır.

İndicə bu mötəbər salonda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev ilin birinci yarısında Qəbələdə görülən işlərlə bağlı hesabat verdi, qarşıda duran vəzifələrdən danışdı. Hesabat məruzəsindəki faktlar və məruzə ətrafında edilən çıxışlar göstərdi ki, Qəbələ əvvəlki illərdə olduğu kimi sürətlə inkişaf etmişdir. Bu inkişaf rəvan xətt üzrə davam edir. Artıq Qəbələ dünyanın inkişaf etmmiş ölkələrində belə tanınır. Qısa tarixi zaman kəsiyində belə bir uğur, əlbəttə, çox fərəhlidir, qürur doğuracaq bir məsələdir. İndi Qəbələ istər MDB məkanında, istərsə də bütün dünyada bir mədəniyyət mərkəzinə, beynəlxalq tədbirlər məkanına çevrilmişdir. Bunların hamısı Heydər Əliyev siyasətinin bəhrələridir, cənab Prezidentimiz İlham Əliyevin yüksək təşkilatçılığı, fədakarlığı, qətiyyəti, sizin səmərəli və ardıcıl əməyiniz sayəsində qazanılmış, əldə olunmuşdur. Mən əminəm ki, qəbələlilər ikinci yarımildə də daha böyük nailiyyətlər uğrunda öz fədakar əməklərini davam etdirəcəklər.

Qarşıdan çox əlamətdar, ölkə üçün çox vacib bir siyasi kampaniya gəlir. Bu kampaniya oktyabr ayında keçiriləcək prezident seçkiləridir. Bu seçkilərdə siyasi fəallıq, reallığa düzgün qiymət vermək sizlərdən, bütün Azərbaycan xalqından asılıdır. Son 10 ildə görülən işlər göz qabağındadır. Uğurlar, əldə olunan nailiyyətlər bütün dünyaya məlumdur. Elə bunlar Qəbələnin timsalında da aydın görünür. Son zamanlar, eyni zamanda prezident seçkiləri yaxınlaşdıqca xalqın dəstəyi də göstərir ki, ölkə başçısı yenidən Prezident seçilmək üçün böyük etimad qazanmışdır. Bu etimad onunla bağlıdır ki, cənab Prezident XX əsrin ən böyük dövlət və siyasi xadimi hesab edilən Heydər Əliyev siyasətinə söykənib. Bu siyasət inkişaf tempinə görə dövlətimizi dünyanın lider dövlətinə çevirib, xalqın həyat səviyyəsini köklü sürətdə dəyişib, yaxşılaşdırıb, yeni cəmiyyətin yeni dünyagörüşlü insanlarını formalaşdırıb. Biz inanırıq ki, Azərbaycan xalqı, o cümlədən qəbələlilər qarşıdakı siyasi kampaniyada da fəal iştirak edəcək, öz düzgün seçimlərini edəcəklər.

Bir daha qarşıda duran vəzifələrin yerinə yetirilməsində hamınıza, bütün qəbələlilərə yeni-yeni uğurlar arzulayıram.

---

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2013-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

**Hörmətli yığıncaq iştirakçıları!**

Bildiyiniz kimi iyulun 18-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

İclasdakı giriş nitqində 2013-cü ilin birinci yarısının çox müsbət olduğunu qeyd edən dövlət başçısı bildirmişdir ki, ilin birinci yarısında ümumi daxili məhsul istehsalı 5 faiz, qeyri-neft sektoru təxminən 11 faiz artıb. Vəzifə əsas hədəfi— qeyri-neft sektorunu inkişaf etdirməkdən ibarət olduğunu qeyd edən dövlət başçısı bu istiqamətdə çox ciddi nailiyyətlərin qazanıldığını, qeyri-neft sektorunda gedən proseslərin iqtisadiyyatın ümumi inkişafının təzahürü olduğunu vurğulayaraq ilin birinci yarısında kənd təsərrüfatı sahəsində təxminən 5 faiz səviyyəsində artım olduğunu, ölkə iqtisadiyyatına qoyulan sərmayələrin xeyli artdığını qeyd edib. Prezident İlham Əliyev bildirib ki, xarici investorların Azərbaycana inamı ölkənin ümumi inkişafını əks etdirir.

Cənab İlham Əliyev diqqətə çatdırıb ki, ildən-ilə artan valyuta ehtiyatları bu gün 48 milyard dollardan çoxdur. Ölkədə həyata keçirilən islahatların dünyanın aparıcı maliyyə qurumları tərəfindən də təqdir edildiyini



vurğulayan dövlət başçısı bildirib ki, bu islahatlar güclü sosial siyasətlə tamamlanır: “Ona görə də hətta böhranlı illərdə Azərbaycan əhalisinin gəlirləri artır, manatın məzənnəsi sabit qalır. Altı ayda əhalinin pul gəlirləri 7 faizdən çox artıb, inflyasiya isə cəmi 2 faiz olub. Maaşlarda artım qeydə alınıb, orta maaş 520 dollar, orta pensiya 200 dollar səviyyəsindədir”.

Prezident İlham Əliyev bildirmişdir ki, ölkəmizin bölgələri də sürətli inkişaf dövrünü yaşayır, rayonlar, kəndlər abadlaşır, böyük sənaye müəssisələri yaradılır, işsizliyin səviyyəsi azalır. Bu ilin sonunda başa çatacaq regionların inkişafı üzrə ikinci Dövlət proqramı uğurla icra edilir.

Xarici siyasətdə atılan uğurlu addımlardan danışan Prezident İlham Əliyev son altı ay ərzində beynəlxalq təşkilatlarla əməkdaşlığa da böyük diqqət yetirildiyini söyləyib. Dövlət başçısı müxtəlif beynəlxalq tədbirlərdə iştirakı və görüşlərini xatırladaraq, son bir il ərzində anti-Azərbaycan, ermənipərəst, ölkəmizin uğurlu inkişafını qəbul edə bilməyən qüvvələr fəaliyyətlərini gücləndirdiklərini bildirmişdir: “Və bu da təbiidir. Çünki ölkənin müstəqil siyasəti, daxildəki sabitlik, xoş əhval-ruhiyyə heç də onları qane edə bilməz”. Avropa İttifaqına səfərinin xüsusi əhəmiyyət daşıdığını söyləyən dövlət başçısı bu səfərin müsbət nəticələrini, səfər zamanı bir çox məsələlərin müzakirəsi üçün yaxşı imkanlar yarandığını diqqətə çatdırıb. Prezident İlham Əliyev ötən yarım ildə Azərbaycanın enerji siyasətini də uğurla davam etdirdiyini bildirib. Dövlət başçısı ötən ay Bakıda keçirilən hərbi parada da toxunub və bu paradın ordu quruculuğu sahəsində görülən işlərin hesabatı olmaqla yanaşı, Azərbaycan Ordusunun qüdrətini nümayiş etdirdiyini vurğulayıb.

**Hörmətli yığıncaq iştirakçıları!**

2013-cü ilin birinci yarısında sosial-iqtisadi sahədə Qəbələ rayonunda da işlər uğurla davam etdirilmişdir.

Rayonumuzun ictimai həyatında baş verən əsas əlamətdar hadisə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü ilin fevral ayının 28-də Qəbələyə səfəridir.

**(Ardı 4-cü səhifədə).**